| S/n | adı, soyadı | vəzifəsi |
|---|---|---|
| 1 | Arzu Əliyev | baş idarənin rəis müavini |
| 2 | Abbas Allahverdiyev | gömrük prosedurları və ödənişləri şöbəsinin rəisi |
| 3 | Qalib Əliməmmədov | mühasibat uçotu və təchizat şöbəsinin rəisi |
| 4 | Allahverdi Mədədov | "Samur" gömrük postunun rəisi |
| 5 | Valid Nəsirov | "Yalama" gömrük postunun rəisi |
| 6 | Vasif Əsədov | "Xanoba" gömrük postunun rəisi |
| 7 | Renat Yolçiyev | "Şirvanlı" gömrük postunun rəisi |
| 8 | Elvin Rəhimov | "Zuxul" gömrük postunun rəisi vəzifəsini müvəqqəti icra edən |
| 9 | Rüstəmov Rüstəm | "Qafqaz konserv zavodu" MMC |
| 10 | Nizami Ağayev | "Dəvəçi dəyirman" MMC |
| 11 | Məmməd Məmmədov | "Dəvəçi taxıl" MMC |
| 12 | Elşən Məhərrəmov | "Yeni Xaçmaz Taxıl" MMC |
| 13 | Zaur Əliyev | "Yalama Aqropark" MMC |
| 14 | Rəhman Məmmədov | "Aqrokimya" MMC |
| 15 | Rüstəm Quliyev | "Hado" MMC |

07.05.2018-ci il Xaçmaz şəhəri

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi**
**Xaçmaz Gömrük İdarəsində 07 may 2018-ci il tarixdə keçirilmiş görüşün**

PROTOKOLU No 3

**İştirak edirlər:** Xaçmaz Gömrük İdarəsinin ərazisində fəaliyyət göstərən sahibkarlar, Xaçmaz Gömrük İdarəsinin nümayəndələri.

Sədr: Pərviz Rəhimov

Katib: Elxan Səmədov

**Görüşün mövzusu:**

Azərbaycan Respublikasında ixracın stimullaşdırılması, xarici iqtisadi fəaliyyət iştirakçılarına münbit şəraitin yaradılması, maliyyə intizamının möhkəmləndirilməsi, eyni zamanda, qeyri-neft məhsulları ixracının təşviqi istiqamətində həyata keçirilən tədbirlərin müzakirəsi

**Dinlənildi:**

**1. Dövlət Gömrük Komitəsi Xaçmaz Gömrük İdarəsinin rəisi Pərviz Rəhimov** giriş sözü ilə çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafı, daxili istehsalın artırılması, ölkənin ixrac potensialının gücləndirilməsi, daxili bazanın qorunması istiqamətində həyata keçirilən tədbirlərdən və görülən işlərin ölkə iqtisadiyyatının inkişafına təsirindən bəhs etdi.

Ölkədə iqtisadi islahatların həyata keçirilməsində gömrük xidmətinin də öz töhfəsini əsirgəmədiyini bildirən Pərviz Rəhimov sahibkarlıq mühitinin yaxşılaşdırılması, ticarətin asanlaşdırılması və sürətləndirilməsi istiqamətində gömrük orqanlarının fəaliyyəti barədə görüş iştirakçılarına geniş məlumat verdi.

İdarə rəisi Gömrük İdarəsində bu sahədə müəyyən işlərin görüldüyünü, iş adamlarının daha səmərəli fəaliyyət göstərmələrinə lazımi şəraitin yaradılması üçün bütün strukturlarla söhbətlər aparıldığını, müvafiq göstərişlərin verildiyini, eyni zamanda Gömrük İdarəsinə müraciət edən hər bir iş adamına qayğı göstərildiyini, zərurət yarandıqda onlar təlimatlandırıldığını və edilən hər bir sorğuya vaxtında cavab verildiyini müşavirə iştirakçılarının diqqətinə çatdırdı.

**2. Sonra çıxış edən Xaçmaz Gömrük İdarəsi rəisinin müavini Zal Zalov** bildirdi ki, ölkədə xarici iqtisadi fəaliyyət iştirakçılarına münbit şəraitin yaradılması, maliyyə intizamının möhkəmləndirilməsi, eyni zamanda qeyri-neft məhsulları ixracının təşviqi istiqamətində həyata keçirilən tədbirlər sahibkarların öz məhsullarını ixrac etməyə marağını artırıb.

Bu ilin birinci rübünün göstəricilərində ötən ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft məhsullarının ixracı, o cümlədən kənd təsərrüfatı və emalı məhsullarının ixracında

artım müşahidə olunduğu diqqətə çatdırılıb, meyvə-tərəvəz məhsullarının ixracındakı artım isə xüsusilə vurğulanıb.

(Xaçmaz Gömrük İdarəsi rəisinin müavini Zal Zalovun çıxışının tam mətni əlavə olunur).

**Xarici iqtisadi fəaliyyət iştirakçı Bəxtiyar Əmirbəyov** ("Amoris" firması) çıxış edərək 1993-cü ildən başlayaraq yeni yaranmış sahibkar təbəqəsinin inkişafına daim diqqət və qayğı göstərildiyin, dövlətin onlara daim himayədarlıq etməsini vürğulayaraq məmurların sahibkarlara mane olmadığını,onların fəaliyyətinə yersiz müdaxilənin edilmədiyini, onlara qayğı ilə yanaşıldığını qeyd etdi.

Daha sonra görüş diskussiya şəraitində davam etdi və sahibkarları maraqlandıran suallar ətraflı cavablandırıldı.

Sədr: Pərviz Rəhimov

Katib: Elxan Səmədov

**Hörmətli tədbir iştirakçıları**

2018-ci ildə müstəqil Azərbaycan Respublikasında gömrük orqanlarının yaradılmasının 26-cı ildönümü tamam olmuşdur.

Azərbaycan Respublikasının iqtisadi strategiyasının həyata keçirilməsində, dövlətçilik təməlinin möhkəmləndirilməsində gömrük xidməti önəmli mövqeyə malikdir. Azərbaycan Respublikası öz suverenliyini bərpa etdikdən sonra 1992-ci il yanvarın 30-da Dövlət Gömrük Komitəsi yaradılmışdır.

Lakin, o zaman ölkədə gərgin siyasi vəziyyət gömrük xidmətinin fəaliyyətinə də öz təsirini göstəriridi. 1993-cü ildə yenidən respublika rəhbərliyinə gələn ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanın yeni inkişaf mərhələsinin əsasını qoydu. Həmin vaxtdan etibarən respublikanın ictimai-siyasi həyatında müsbət dəyişikliklər baş verdi, siyasi və iqtisadi sahələrdə ardıcıl şəkildə islahatlar aparıldı, bütün ölkələrlə bərabər hüquqlu və qarşılıqlı faydalı iqtisadi əməkdaşlığı nəzərdə tutan vahid iqtisadi strategiya formalaşdırıldı.

Müstəqilliyimizin ilk illərində ölkə iqtisadiyyatının digər sahələri kimi, ciddi tənəzzül dövrünü yaşayan gömrük xidməti məhz dahi rəhbərin hakimiyyətə qayıdışından sonra köklü kadr islahatları və kompleks tədbirlər nəticəsində stabil və dinamik inkişaf yoluna qədəm qoydu.

"Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir"-deyən Heydər Əliyev gömrük xidmətinin ölkə iqtisadiyyatının inkişafında rolunu yüksək qiymətləndirir və bu orqanın fəaliyyətini daim diqqətdə saxlayırdı. Azərbaycan Respublikasının gömrük sistemi məhz ümummilli liderimiz tərəfindən müəyyən edilən siyasətə uyğun olaraq formalaşmış və inkişaf edərək çoxfunksiyalı kompleksə çevrilmişdir.

Azərbaycan Respublikasının dövlət büdcəsinin formalaşmasında Dövlət Gömrük Komitəsinin rolu xeyli artırıldı, gömrük işinin iqtisadi göstəriciləri və maddi-texniki resursları, informasiya təminatı yaxşılaşdırıldı, gömrük qanunvericiliyinin formalaşdırılması, hüquqi-normativ sənədlərin yaradılması həyata keçirildi. Azərbaycan gömrüyünün beynəlxalq təşkilatlarla əlaqəsinin daha da möhkəmləndirilməsi və təcrübə mübadiləsi aparılması sahəsində səylər geniş xarakter aldı.

Hazırda Azərbaycan Gömrük Xidməti mükəmməl hüquqi bazaya, inkişaf etmiş infrastruktura malik olmaqla, ölkənin quru, hava və dəniz yollarında respublikanın

iqtisadi mənafeyini və təhlükəsizliyini qoruyur, qaçaqmalçılığa qarşı uğurla mübarizə aparır.

Respublikamızın iqtisadi artım tempinə uyğun mühüm tədbirlərin davamlı görülməsi məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə gömrük orqanları qarşısında da bir sıra mühüm vəzifələrin yerinə yetirilməsi qoyulmuşdur. Bu, əsasən ölkənin iqtisadi təhlükəsizliyinin qorunması və dünya təsərrüfatı ilə geniş əlaqələrin qurulmasından ibarətdir. Ötən dövr ərzində idxal-ixrac əməliyyatları üzrə gömrük nəzarətinin təkmilləşdirilməsi xarici-iqtisadi fəaliyyətdə gömrük tarif tənzimlənməsinin və gömrük orqanlarında maliyyə-vergi mexanizminin təkmilləşdirilməsi, gömrük-vergi qanunvericiliyinə dair normativ-hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində müvafiq işlər görülmüş, qaçaqmalçılıq və gömrük qaydalarının pozulması halları ilə mübarizə gücləndirilmişdir.

Xaçmaz Gömrük İdarəsi 2017-ci il öz fəaliyyətini Azərbaycan Respublikasının qanunlarına, gömrük işinə dair normativ-hüquqi aktlara uyğun olaraq qurmuş, gömrük nəzarətinə və gömrük işinə dair normativ-hüquqi bazanı təkmilləşdirmək, maliyyə intizamını möhkəmləndirmək, gömrük hüquqpozmalarına qarşı mübarizəni gücləndirmək, şəxsi heyətlə aparılan işin səmərəliliyinin artırmaq istiqamətində iş aparmışdır.

2017-ci il üçün(01.01.2017-25.12.2017) Xaçmaz Gömrük İdarəsində mal dövriyyəsi 357 731,55 ABŞ dolları olmuşdur. Bu zaman 530 080,11 ton müxtəlif adda yük rəsmiləşdirilmişdir.

Xarici iqtisadi fəaliyyət üzrə sərbəst tədavülə buraxılış proseduranda 45 963,56 min ABŞ dolları dəyərində 132 686,88 ton, ixrac proseduranda 311 205,69 min ABŞ dolları dəyərində 396 574,77 ton, müvəqqəti idxal proseduranda 167,79 min ABŞ dolları dəyərində 411,19 ton, təkrar ixrac proseduranda 35,86 min ABŞ dolları dəyərində 16,04 ton, təkrar idxal proseduranda 358,65 min ABŞ dolları dəyərində 391,23 ton müxtəlif adda yük rəsmiləşdirilmişdir.

İxrac əməliyyatlarında əsas yer tutan mallardan kartof ümumi ixracın 5.91%-ni, pomidor 37.15%-ni, xiyar 1.54%, soğan 2.97%-ni, alma 9.59%-ni, gilas 7.44%-ni, xurma 20.92%-ni, şaftalı və nektarin 2.48%-ni, digər mallar isə 11.99%-ni təşkil etmişdir.

İdxal əməliyyatlarıda ümumi idxalın 33.59%-ni buğda, 5.34%-ni taxta,6.23%-ni gübrə, 0.74%-ni meyvə və tərəvəz, 33.05%-ni mal-qara, 10,31%-ni turizm kompleksi üçün avadanlıq, 10.73%-ni isə digər mallar təşkil etmişdir.

Bu gün Azərbaycanİqtisadiyyatında əldə edilən uğurların əsas səbəblərindən biri də ölkəmizdə sahibkarlıq fəaliyyətinə göstərilən dövlət dəstəyi, sahibkarlıq subyektlərinin inkişafı məqsədilə atılan mühüm addımlardır.

Prezident İlham Əliyev sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün münbit şərait yaradılması, ölkə iqtisadiyyatında özəl sektorun payının artırılması üçün bütün zəruri addımlar atılması, maliyyə, vergi, gömrük intizamının gücləndirilməsi və bu sahədə şəffaflığın tam təmin edilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilməsi barədə tapşırıqlar vermişdir.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında, münbit biznes mühitinin formalaşması və sahibkarlıq fəaliyyətinin inkişafında mühüm rol oynayan gömrük orqanları da bu istiqamətdə bir sıra tədbirlər həyata keçirir.

Xaçmaz Gömrük İdarəsi fəaliyyətində biznes-gömrük əməkdaşlığına xüsusi önəm verir, bu məqsədlə vaxtaşırı olaraq iş adamları ilə görüşlər keçirilir, ölkədə baş verən iqtisadi proseslər, idxal-ixrac əməliyyatlarının vəziyyəti barədə həm sahibkarlar məlumatlandırılır, həm də onların fikirləri öyrənilir və təklifləri dəyərləndirilir.

Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli 1993 saylı Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökümətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"na əsasən Dövlət Gömrük Komitəsinin müvafiq sərəncamı ilə "Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuralar haqqında" Əsasnamə təsdiq edilmişdir. Əsasnamə "Açıq Hökümətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"na əsasənhazırlanmışdır və gömrük orqanları ilə xarici iqtisadi əlaqələr iştirakçıları arasında əməkdaşlıq mexanizmlərini müəyyən edir.

Gömrük qanunvericiliyinin tələblərinin, o cümlədən xarici əlaqələr iştirakçılarının beynəlxalq ticarət sahəsində öhdəliklərinin yerinə yetirilməsinin təmin edilməsi qanunvericiliyə edilmiş dəyişikliklərin izah və şərh edilməsi, qaldırılan məsələlərlə bağlı müzakirələrin aparılması və bununla da gömrük xidməti və biznessubyektləri arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə Xaçmaz Gömrük İdarəsində müxtəlif sahələr üzrə sahibkarlıq subyektlərinin nümayəndələrindən ibarət İctimai şura yaradılmışdır. İctimai şura könüllü, özünüidarə, müstəqillik və öz səlahiyyətləri çərçivəsində qərar qəbul etmək prinsipi əsasında fəaliyyət göstərir.

İctimai şuranın yaradılmasında əsas məqsəd xarici fəaliyyətin inkişaf etdirilməsinə yardım etmək, beynəlxalq ticarətə cəlb olunan tərəflərin rolunu artırmaq, mal dövriyyəsinin sürətləndirilməsinə köməklik göstərmək, gömrük tənzimlənməsi və onun həyata keçirilməsi üzrə təkliflərin müzakirəsi, iş adamları və biznes subyektləri arasında gömrük işi sahəsində hüquq mədəniyyətinin səviyyəsinin artırılmasıdır.

Gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi, həmçinin müxtəlif bürokratik əngəllərin və vaxt itkisinin aradan qaldırılması məqsədilə sahibkarlar artıq idxal etdikləri mallar və nəqliyyat vasitələri barədə qısa idxal bəyannaməsi təqdim etməklə beynəlxalq praktikada müsbəttəcrübə kimi qəbul olunmuş ilkin bəyanetmə elektron xidmətindən yararlana bilərlər. Gömrük rəsmiləşdirilməsilə bağlı tətbiq olunan yeniliyə əsasən, artıq idxal-ixrac əməliyyatlarını həyata keçirən fiziki və hüquqi şəxslər mallar və nəqliyyat vasitələri gömrük sərhədini keçənədək gömrük orqanlarına qabaqcadan, müvafiq olaraq qısa idxal və ya qısa ixrac bəyannaməsi təqdim etməklə, gömrük orqanlarını apardıqları xarici iqtisadi fəaliyyət barədə məlumatlandırırlar.

Təqdim olunan yeniliyin sahibkarlar üçün üstünlüyü ondan ibarətdir ki, gömrük orqanları artıq idxal və ixrac olunan mallar barədə qabaqcadan məlumat əldə edir və bununla da sərhəd buraxılış məntəqələrində həmin bəyan edilən mal və nəqliyyat vasitələrinin daha sürətli keçidi təmin olunmaqla yanaşı,gömrük rəsmiləşdirilməsi də daha çevik və vaxt itkisi olmadan həyata keçirilir.

Bu gün Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan sabit və davamlı inkişafdadır, ölkəmiz nəinki regionda, eləcə də bütün dünyada əmin-amanlıq və iqtisadi tərəqqiyə xidmət edən qlobal layihələrin əsas təşəbbüskarı qismində çıxış etməkdədir. Öz növbəsində, əminliklə deyə bilərəm ki,

Xaçmaz Gömrük İdarəsinin kollektivi gələcəkdə də respublikamızın iqtisadi inkişafına təkan verməklə ölkənin iqtisadi qüdrətinin artırılmasında, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında, dövlət başçısının həyata keçirdiyi siyasi kursun reallaşmasında mühüm rol oynayacaq, sahibkarlıq mühitinin və özəl sektorun inkişafı, büdcə öhdəliyinə dair tapşırıqların yerinə yetirilməsi istiqamətində üzərinə düşən vəzifələrin icrasını daha səmərəli şəkildə və sürətlə həyata keçirəcək, qarşıya qoyulan təxirəsalınmaz vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün bütün qüvvə və bacarığını əsirgəməyəcəkdir.

# XİFƏN

| Sıra №-si | Hüqiqi və Fiziki şəxslərin adları | ünvan | Qeyd |
|---|---|---|---|
| 1 | "Yeni Xaçmaz Taxıl "MMC (Məhərrəmov Elşən) | Xaçmaz rayonu | |
| 2 | "Dəvəçi Dəyirman "MMC (Ağayev Nizami) | Şabran rayonu | |
| 3 | "Qafqaz Konserv zavod "MMC (Rüstəmov Rüstəm) | Xaçmaz rayonu | |
| 4 | "Dəvəçi Taxıl "MMC (Məmmədov Məmməd) | Şabran rayonu | |
| 5 | "Aqropest"MMC (Səmədov Mirsəftər) | Bakı şəhəri | |
| 6 | "Aqrokimya" MMC (Məmmədov Məmməd) | Bakı şəhəri | |
| 7 | "Yalama Aqropark"MMC (Əliyev Zaur) | Xaçmaz rayonu Nabran qəsəbəsi | |
| 8 | "Şahdağ qış yay turizm kompuleksi" (Tasoyev Ramiz) | Qusar rayonu | |
| 9 | "Aqrolizng"ASC (Səmədov Mirsəftər) | Bakı şəhəri | |
| 10 | "Novero invest" (Səmədov Mirsəftər) | Bakı şəhəri | |
| 11 | "Sona"MMC (Səmədov Kamran) | Quba rayonu | |
| 12 | "Sırat 114"MMC (İsmayılov Kamran) | Quba rayonu | |
| 13 | "Amoris" firmasi ( Əmirbəyov Bəxtiyar) | Qusar rayonu | |
| 14 | Hüseynov Əliyar | Xaçmaz rayonu | |
| 15 | Məmmədov Arif | Xaçmaz rayonu | |
| 16 | Məmmədov Tərlan | Xaçmaz rayonu | |
| 17 | Hüseynov Tahir | Xaçmaz rayonu | |
| 18 | Məmmədov Natiq | Xaçmaz rayonu | |
| 19 | Əliyeva Gülsadə | Xaçmaz rayonu | |
| 20 | Mahmudov Yalçın | Xaçmaz rayonu | |
| 21 | Məmmədov Nurlan | Xaçmaz rayonu | |
| 22 | İsayev Elxan | Xaçmaz rayonu | |

14.06.2018-ci il Xaçmaz şəhəri

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi**
**Xaçmaz Gömrük İdarəsində 14 iyun 2018-ci il tarixdə keçirilmiş görüşün**

PROTOKOLU No 5

**İştirak edirlər:** "Yeni Xaçmaz Taxıl"MMC-nin nümayəndəsi Elşən Məhərrəmov, "Dəvəçi Dəyirman" MMC-nin nümayəndəs Nizami Ağayev, "Qafqaz Konserv zavod" MMC-nin nümayəndəs Rüstəm Rüstəmov, fərdi sahibkarlar Arif Məmmədov, Tərlan Məmmədov, Tahir Hüseynov, Nurlan Məmmədov, Yalçın Mahmudov eləcə də Xaçmaz Gömrük İdarəsinin nümayəndələri.

Sədr: Pərviz Rəhimov

Katib: Elxan Səmədov

**Görüşün mövzusu:**

Azərbaycan Respublikasında ixracın stimullaşdırılması, xarici iqtisadi fəaliyyət iştirakçılarına münbit şəraitin yaradılması, maliyyə intizamının möhkəmləndirilməsi, eyni zamanda, qeyri-neft məhsulları ixracının təşviqi istiqamətində həyata keçirilən tədbirlərin müzakirəsi

**Dinlənildi:**

**1. Dövlət Gömrük Komitəsi Xaçmaz Gömrük İdarəsinin rəisi Pərviz Rəhimov** giriş sözü ilə çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafı, daxili istehsalın artırılması, ölkənin ixrac potensialının gücləndirilməsi, daxili bazanın qorunması istiqamətində həyata keçirilən tədbirlərdən və görülən işlərin ölkə iqtisadiyyatının inkişafına təsirindən bəhs etdi.

Ölkədə iqtisadi islahatların həyata keçirilməsində gömrük xidmətinin də öz töhfəsini əsirgəmədiyini bildirən Pərviz Rəhimov sahibkarlıq mühitinin yaxşılaşdırılması, ticarətin asanlaşdırılması və sürətləndirilməsi istiqamətində gömrük orqanlarının fəaliyyəti barədə görüş iştirakçılarına geniş məlumat verdi.

İdarə rəisi bildirdi ki, sahibkarlığın inkişafı ilə bağlı gömrük orqanlarının və təşkilatlarının qarşısında duran vəzifələr proqram sənəd kimi qəbul edilmiş və bu sahədə müəyyən işlər görülmüş, iş adamlarının daha səmərəli fəaliyyət göstərmələrinə lazımi şərait yaradılması üçün bütün strukturlarla söhbətlər aparılmış, müvafiq göstərişlər verilmişdir.Gömrük İdarəsində hər bir iş adamına qayğı göstərilir, zərurət yarandıqda onlar təlimatlandırılır və hər bir sorğuya vaxtında cavab verilir.

Xaçmaz Gömrük İdarəsinin şəxsi heyəti iş adamlarının fəaliyyətinin daha da təkmilləşdirilməsi və ardıcıl inkişafı sahəsində Dövlət Gömrük Komitəsi rəhbərliyi tərəfindən müəyyən edilmiş tədbirlərin hazırlanıb həyata keçirilməsində bütün qüvvələri səfərbər edəcəkdir.

**2. Sonra çıxış edən Xaçmaz Gömrük İdarəsi rəisinin müavini Zal Zalov** bildirdi ki, ölkədə xarici iqtisadi fəaliyyət iştirakçılarına münbit şəraitin yaradılması, maliyyə intizamının möhkəmləndirilməsi, eyni zamanda qeyri-neft məhsulları ixracının təşviqi istiqamətində həyata keçirilən tədbirlər sahibkarların öz məhsullarını ixrac etməyə marağını artırıb.

Bu ilin birinci rübünün göstəricilərində ötən ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft məhsullarının ixracı, o cümlədən kənd təsərrüfatı və emalı məhsullarının ixracında artım müşahidə olunduğu diqqətə çatdırılıb, meyvə-tərəvəz məhsullarının ixracındakı artım isə xüsusilə vurğulanıb.

(Xaçmaz Gömrük İdarəsi rəisinin müavini Zal Zalovun çıxışının tam mətni əlavə olunur).

Daha sonra görüş diskussiya şəraitində davam etdi və sahibkarları maraqlandıran suallar ətraflı cavablandırıldı.

Sədr: Pərviz Rəhimov

Katib: Elxan Səmədov

**Hörmətli tədbir iştirakçıları**

Azərbaycan Respublikasının iqtisadi strategiyasının həyata keçirilməsində, dövlətçilik təməlinin möhkəmləndirilməsində gömrük xidməti önəmli mövqeyə malikdir. Azərbaycan Respublikası öz suverenliyini bərpa etdikdən sonra 1992-ci il yanvarın 30-da Dövlət Gömrük Komitəsi yaradılmışdır. Lakin, o zaman ölkədə gərgin siyasi vəziyyət gömrük xidmətinin fəaliyyətinə də öz təsirini göstəriridi. 1993-cü ildə yenidən respublika rəhbərliyinə gələn ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanın yeni inkişaf mərhələsinin əsasını qoydu. Həmin vaxtdan etibarən respublikanın ictimai-siyasi həyatında müsbət dəyişikliklər baş verdi, siyasi və iqtisadi sahələrdə ardıcıl şəkildə islahatlar aparıldı, bütün ölkələrlə bərabər hüquqlu və qarşılıqlı faydalı iqtisadi əməkdaşlığı nəzərdə tutan vahid iqtisadi strategiya formalaşdırıldı.

Müstəqilliyimizin ilk illərində ölkə iqtisadiyyatının digər sahələri kimi, ciddi tənəzzül dövrünü yaşayan gömrük xidməti məhz dahi rəhbərin hakimiyyətə qayıdışından sonra köklü kadr islahatları və kompleks tədbirlər nəticəsində stabil və dinamik inkişaf yoluna qədəm qoydu.

"Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir"-deyən Heydər Əliyev gömrük xidmətinin ölkə iqtisadiyyatının inkişafında rolunu yüksək qiymətləndirir və bu orqanın fəaliyyətini daim diqqətdə saxlayırdı. Azərbaycan Respublikasının gömrük sistemi məhz ümummilli liderimiz tərəfindən müəyyən edilən siyasətə uyğun olaraq formalaşmış və inkişaf edərək çoxfunksiyalı kompleksə çevrilmişdir.

Azərbaycan Respublikasının dövlət büdcəsinin formalaşmasında Dövlət Gömrük Komitəsinin rolu xeyli artırıldı, gömrük işinin iqtisadi göstəriciləri və maddi-texniki resursları, informasiya təminatı yaxşılaşdırıldı, gömrük qanunvericiliyinin formalaşdırılması, hüquqi-normativ sənədlərin yaradılması həyata keçirildi. Azərbaycan gömrüyünün beynəlxalq təşkilatlarla əlaqəsinin daha da möhkəmləndirilməsi və təcrübə mübadiləsi aparılması sahəsində səylər geniş xarakter aldı.

Hazırda Azərbaycan Gömrük Xidməti mükəmməl hüquqi bazaya, inkişaf etmiş infrastruktura malik olmaqla, ölkənin quru, hava və dəniz yollarında respublikanın iqtisadi mənafeyini və təhlükəsizliyini qoruyur, qaçaqmalçılığa qarşı uğurla mübarizə aparır.

Respublikamızın iqtisadi artım tempinə uyğun mühüm tədbirlərin davamlı görülməsi məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə gömrük orqanları qarşısında da bir sıra mühüm vəzifələrin yerinə yetirilməsi qoyulmuşdur. Bu, əsasən ölkənin iqtisadi təhlükəsizliyinin qorunması və dünya təsərrüfatı ilə geniş əlaqələrin

qurulmasından ibarətdir. Ötən dövr ərzində idxal-ixrac əməliyyatları üzrə gömrük nəzarətinin təkmilləşdirilməsi xarici-iqtisadi fəaliyyətdə gömrük tarif tənzimlənməsinin və gömrük orqanlarında maliyyə-vergi mexanizminin təkmilləşdirilməsi, gömrük-vergi qanunvericiliyinə dair normativ-hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində müvafiq işlər görülmüş, qaçaqmalçılıq və gömrük qaydalarının pozulması halları ilə mübarizə gücləndirilmişdir.

Bu gün Azərbaycan İqtisadiyyatında əldə edilən uğurların əsas səbəblərindən biri də ölkəmizdə sahibkarlıq fəaliyyətinə göstərilən dövlət dəstəyi, sahibkarlıq subyektlərinin inkişafı məqsədilə atılan mühüm addımlardır.

Prezident İlham Əliyev sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün münbit şərait yaradılması, ölkə iqtisadiyyatında özəl sektorun payının artırılması üçün bütün zəruri addımlar atılması, maliyyə, vergi, gömrük intizamının gücləndirilməsi və bu sahədə şəffaflığın tam təmin edilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilməsi barədə tapşırıqlar vermişdir.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında, münbit biznes mühitinin formalaşması və sahibkarlıq fəaliyyətinin inkişafında mühüm rol oynayan gömrük orqanları da bu istiqamətdə bir sıra tədbirlər həyata keçirir.

Xaçmaz Gömrük İdarəsi fəaliyyətində biznes-gömrük əməkdaşlığına xüsusi önəm verir, bu məqsədlə vaxtaşırı olaraq iş adamları ilə görüşlər keçirilir, ölkədə baş verən iqtisadi proseslər, idxal-ixrac əməliyyatlarının vəziyyəti barədə həm sahibkarlar məlumatlandırılır, həm də onların fikirləri öyrənilir və təklifləri dəyərləndirilir.

Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli 1993 saylı Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökümətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"na əsasən Dövlət Gömrük Komitəsinin müvafiq sərəncamı ilə "Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuralar haqqında" Əsasnamə təsdiq edilmişdir. Əsasnamə "Açıq Hökümətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"na əsasənhazırlanmışdır və gömrük orqanları ilə xarici iqtisadi əlaqələr iştirakçıları arasında əməkdaşlıq mexanizmlərini müəyyən edir.

Gömrük qanunvericiliyinin tələblərinin, o cümlədən xarici əlaqələr iştirakçılarının beynəlxalq ticarət sahəsində öhdəliklərinin yerinə yetirilməsinin təmin edilməsi qanunvericiliyə edilmiş dəyişikliklərin isah və şərh edilməsi, qaldırılan məsələlərlə bağlı müzakirələrin aparılması və bununla da gömrük xidməti və biznessubyektləri arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə Xaçmaz Gömrük İdarəsində müxtəlif sahələr üzrə sahibkarlıq subyektlərinin nümayəndələrindən ibarət İctimai şura yaradılmışdır. İctimai şura könüllü, özünüidarə, müstəqillik və öz səlahiyyətləri çərçivəsində qərar qəbul etmək prinsipi əsasında fəaliyyət göstərir.

İctimai şuranın yaradılmasında əsas məqsəd xarici fəaliyyətin inkişaf etdirilməsinə yardım etmək, beynəlxalq ticarətə cəlb olunan tərəflərin rolunu artırmaq, mal dövriyyəsinin sürətləndirilməsinə köməklik göstərmək, gömrük tənzimlənməsi və onun həyata keçirilməsi üzrə təkliflərin müzakirəsi, iş adamları və biznes subyektləri arasında gömrük işi sahəsində hüquq mədəniyyətinin səviyyəsinin artırılmasıdır.

Gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi, həmçinin müxtəlif bürokratik əngəllərin və vaxt itkisinin aradan qaldırılması məqsədilə sahibkarlar artıq idxal etdikləri mallar və nəqliyyat vasitələri barədə qısa idxal bəyannaməsi təqdim

etməklə beynəlxalq praktikada müsbəttəcrübə kimi qəbul olunmuş ilkin bəyanetmə elektron xidmətindən yararlana bilərlər. Gömrük rəsmiləşdirilməsilə bağlı tətbiq olunan yeniliyə əsasən, artıq idxal-ixrac əməliyyatlarını həyata keçirən fiziki və hüquqi şəxslər mallar və nəqliyyat vasitələri gömrük sərhədini keçənədək gömrük orqanlarına qabaqcadan, müvafiq olaraq qısa idxal və ya qısa ixrac bəyannaməsi təqdim etməklə, gömrük orqanlarını apardıqları xarici iqtisadi fəaliyyət barədə məlumatlandırırlar.

Təqdim olunan yeniliyin sahibkarlar üçün üstünlüyü ondan ibarətdir ki, gömrük orqanları artıq idxal və ixrac olunan mallar barədə qabaqcadan məlumat əldə edir və bununla da sərhəd buraxılış məntəqələrində həmin bəyan edilən mal və nəqliyyat vasitələrinin daha sürətli keçidi təmin olunmaqla yanaşı,gömrük rəsmiləşdirilməsi də daha çevik və vaxt itkisi olmadan həyata keçirilir.

Bu gün Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan sabit və davamlı inkişafdadır, ölkəmiz nəinki regionda, eləcə də bütün dünyada əmin-amanlıq və iqtisadi tərəqqiyə xidmət edən qlobal layihələrin əsas təşəbbüskarı qismində çıxış etməkdədir. Öz növbəsində, əminliklə deyə bilərəm ki, Xaçmaz Gömrük İdarəsinin kollektivi gələcəkdə də respublikamızın iqtisadi inkişafına təkan verməklə ölkənin iqtisadi qüdrətinin artırılmasında, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında, dövlət başçısının həyata keçirdiyi siyasi kursun reallaşmasında mühüm rol oynayacaq, sahibkarlıq mühitinin və özəl sektorun inkişafı, büdcə öhdəliyinə dair tapşırıqların yerinə yetirilməsi istiqamətində üzərinə düşən vəzifələrin icrasını daha səmərəli şəkildə və sürətlə həyata keçirəcək, qarşıya qoyulan təxirəsalınmaz vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün bütün qüvvə və bacarığını əsirgəməyəcəkdir.

17.10.2018-ci il Xaçmaz şəhəri

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi**
**Şimal Ərazi Baş Gömrük İdarəsində 17 oktyabr 2018-ci il tarixdə keçirilmiş görüşün**

**PROTOKOLU No 8**

İştirak edirlər: "FOOD Eksport Şəmkir" MMC-nin rəhbəri Tahir Hüseynov, "Villace" MMC – nin nümayəndəsi Nurlan Məmmədov, "Zəfəran" MMC-nin nümayəndəsi Natiq Məmmədov, "Qarden Stor" MMC-nin nümayəndəsi Cəbrayıl Süleymanov, fərdi sahibkarlar Əliyar Əliyev, Tərlan Məmmədov, Yalçın Mahmudov eləcə də Şimal Ərazi Baş Gömrük İdarəsinin nümayəndələri.

Sədr: Pərviz Rəhimov

Katib: Elxan Səmədov

**Görüşün mövzusu:**

Azərbaycan Respublikasında ixracın stimullaşdırılması, xarici iqtisadi fəaliyyət iştirakçılarına münbit şəraitin yaradılması, maliyyə intizamının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin müzakirəsi

**Dinlənildi:**

1. Dövlət Gömrük Komitəsi Şimal Ərazi Baş Gömrük İdarəsinin rəisi Pərviz Rəhimov giriş sözü ilə çıxış edərək Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafı, daxili istehsalın artırılması, ölkənin ixrac potensialının gücləndirilməsi, daxili bazarın qorunması istiqamətində həyata keçirilən tədbirlərdən və görülən işlərin ölkə iqtisadiyyatının inkişafına təsirindən bəhs etdi.

Baş İdarə rəisi çıxışını davam edərək bildirdi ki, hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan islahatlar daha geniş vüsət almış və sosial-iqtisadi inkişaf sahəsində keyfiyyətcə yeni-davamlı inkişaf mərhələsinə keçidin təməli qoyulmuşdur. Yeni mərhələnin əsas hədəfi, iqtisadi səmərəlilik, sosial ədalətlilik və ekoloji təhlükəsizlik prinsiplərini rəhbər tutmaqla, milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası əsasında uzunmüddətli perspektivdə ölkədə əldə olunmuş dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir.

Bu gün əsas hədəf milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası, qeyri-neft sektorunun, sahibkarlığın inkişafının sürətləndirilməsi əsasında ölkədə əldə olunmuş dinamik inkişafın davamlılığını təmin etməkdir.

Sahibkarlığa dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsi, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsi bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə şərait yaratmışdır. Dövlət-sahibkar münasibətləri inkişaf etdirilmiş, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində

əhəmiyyətli addımlar atılmışdır. Sahibkarların hüquqlarının müdafiəsinin işlək mexanizmləri yaradılmış, onların tətbiqi nəticəsində müdaxilə halları azalmışdır. Sahibkarlığın məsləhət, informasiya təminatının gücləndirilməsi və işgüzar əlaqələrinin inkişafı istiqamətində mütəmadi tədbirlər həyata keçirilməkdədir.

Sahibkarlığın inkişafı sahəsində qəbul edilmiş normativ-hüquqi sənədlər, sahibkarlığa dövlət maliyyə mexanizminin daha da təkmilləşdirilməsi iş adamlarında özünəinam hissini artırmış, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə təkan vermişdir.

Ölkədə iqtisadi islahatların həyata keçirilməsində gömrük xidmətinin də öz töhfəsini əsirgəmədiyini bildirən P.Rəhimov sahibkarlıq mühitinin yaxşılaşdırılması, ticarətin asanlaşdırılması və sürətləndirilməsi istiqamətində gömrük orqanlarının fəaliyyəti barədə görüş iştirakçılarına geniş məlumat verdi.

Baş İdarə rəisi bildirdi ki, sahibkarlığın inkişafı ilə bağlı gömrük orqanlarının və təşkilatlarının qarşısında duran vəzifələr proqram sənəd kimi qəbul edilmiş və bu sahədə müəyyən işlər görülmüş, iş adamlarının daha səmərəli fəaliyyət göstərmələrinə lazımi şərait yaradılması üçün bütün strukturlarla söhbətlər aparılmış, müvafiq göstərişlər verilmişdir. Şimal Ərazi Baş Gömrük İdarəsində hər bir iş adamına qayğı göstərilir, zərurət yarandıqda onlar təlimatlandırılır və hər bir sorğuya vaxtında cavab verilir.

Baş İdarə rəisi P.Rəhimov mayın 8-də Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi arasında hər iki qurumun rəhbər vəzifəli şəxslərinin iştirakı ilə korrupsiya ilə mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalandığını qeyd etdi və Şimal Ərazi Baş Gömrük İdarəsində gömrük işinin təşkili istiqamətində atılan addımlardan biri kimi münbit sahibkarlıq mühitinin yaradılması, xarici iqtisadi fəaliyyət iştirakçıları tərəfindən müvafiq ticarət əməliyyatlarını sürətli, şəffaf və asan şəkildə həyata keçirməsi üçün ciddi addımlar atıldığını bildirdi.

Baş İdarə rəisi qanun pozuntularının qarşısının alınması yönündə gömrük əməkdaşları tərəfindən vəzifədən sui-istifadə, qanunsuz tələblərin irəli sürülməsi kimi hallarla qarşılaşarlarsa bu barədə dərhal məlumat verilməsini görüş iştirakçılarının diqqətə çatdırdı və eyni zamanda bildirdi ki, şəfaflıq prinsipi prioritet məsələ kimi daim diqqət mərkəzində saxlanılacaq .

P.Rəhimov çıxışını yekunlaşdırarq, iş adamlarının fəaliyyətinin daha da təkmilləşdirilməsi və ardıcıl inkişafı sahəsində Dövlət Gömrük Komitəsi rəhbərliyi tərəfindən müəyyən edilmiş tədbirlərin hazırlanıb həyata keçirilməsində bütün qüvvələri səfərbər edəcəklərini görüş iştirakçılarının diqqətinə çatdırdı.

Daha sonra görüş diskussiya şəraitində davam etdi və sahibkarları maraqlandıran suallar ətraflı cavablandırıldı.

"Villace" MMC – nin nümayəndəsi Nurlan Məmmədov qeyd etdi ki, hal-hazırda sahibkarların qarşılaşdıqları əsas problem qiymətlərlə bağlıdır. Belə ki, bağlanmış müqavilələrdə qeyd olunmuş qiymətlər ilin müxtəlf vaxtlarında ticarət aparılan ölkədə real qiymətlərlə uzlaşmadığı üçün ixrac olunan kənd təsərrüfatı məhsullarının realizasiyasında çətinliklər yaranır.

Baş İdarə rəisi Pərviz Rəhimov bildirdi ki, qeyd olunan məsələ malların ixrac olunduğu ölkənin müvafiq qurumları ilə razılaşdırılmalıdır. Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən prioritet məsələ kimi vəsaitlərin geri qaytarılması ilə bağlı mühüm addımlar atılır. P.Rəhimov Xarici İqtisadi Fəaliyyət İştirakçılarına konsiqnasiya məsələsində daha ciddi addımların atılmasını xatırlatdı və bununla bağlı müvafiq tədbirlərin görülməsinin vacibliyini diqqətə çatdırdı.

Xarici iqtisadi fəaliyyət iştirakçı Yalçın Mahmudov (Fərdi sahibkar) çıxış edərək 1993-cü ildən başlayaraq yeni yaranmış sahibkar təbəqəsinin inkişafına daim diqqət və qayğı göstərildiyin, dövlətin onlara daim himayədarlıq etməsini vürğulayaraq məmurların sahibkarlara mane olmadığını, onların fəaliyyətinə yersiz müdaxilənin edilmədiyini, onlara qayğı ilə yanaşıldığını qeyd etdi.

**Sədr:** **Pərviz Rəhimov**

**Katib:** **Elxan Səmədov**